# Füzuli beynəlxalq aeroportu Qarabağın “hava qapısı”na çevrilir



***Məlum olduğu kimi, bu il sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanında əlamətdar hadisə baş verib. Belə ki, hava limanının istismara verilməsindən əvvəl, Bakıdan uçan “Azərbaycan Hava Yolları”na məxsus “Airbus A340-500” tipli böyük sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş icra edibdir. Bunun ardınca, Azərbaycanın “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan “Boeing 747-400” tipli hava gəmisi də Füzuli Hava Limanına eniş edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Bakı–Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti 35 dəqiqə olub.***

Füzuli beynəlxalq Hava Limanına artıq ilk reyslərin uğurla keçirilməsi barədə xəbər ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən dərin razılıq hissilə qarşılanıb. **Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi 4 saylı rabitə xidmətləri mərkəzinin mühəndisi, təcrübəli rabitə işçisi, əslən Füzuli rayonunun Əhmədalılar kəndindən olan Rafiq Yusifov** bu barədə fikirlərinin bizimlə bölüşərkən dedi:

– Bu xəbər hamı kimi, məni də çox sevindirdi. Cəmi bir il bundan qabaq işğal altında olan ərazilərimizə indi artıq təyyarələrimiz sərnişin və müxtəlif təyinatlı yüklər daşıyırlar. Gözlərimizin önündə doğma Füzuli, külli Qarabağımız dünyanın ən gözəl məkanlarından birinə çevrilir.

Azərbaycan xalqı öz qədim tarixinin ən şanlı günlərini yaşayır. İnsan yalnız şərəfli bir ölkədə tam xoşbəxt ola bilər. Azərbaycan bu gün məhz belə bir ölkədir. Bu xoşbəxtliyi bizə Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə rəşadətli Milli Ordumuz, bütün Azərbaycan xalqı bəxş edib. Qoy bütün düşmənlər eşitsinlər: Bundan sonra heç bir qüvvə bizi doğma yurd yerlərimizdən perik sala bilməz!

Füzuli beynəlxalq aeroportu hazırda Qarabağın “hava qapısı”na çevrilir. Dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında da beynəlxalq hava limanlarının tikintisi davam edir. Yaxın aylar ərzində Şərqi Zəngəzurdakı həmin hava limanları da istismara veriləcək.

Dostlarımız bizim uğurlarımıza sevinirlər, düşmənlərimiz xar olurlar. Azərbaycan dövləti güclü və qüdrətlidir. Prezident İlham Əliyevin yüksək səriştəli idarəçiliyi ilə ölkəmizin sürətli inkişafı və tərəqqisi davam edir. Bu gün belədir, sabah da, yaxın və uzaq gələcəkdə də belə olacaq!

Bizim uğurlarımız xalqla iqtidarın sarsılmaz birliyi sayəsində mümkün olub. Azərbaycan xalqı öz müdrik liderinə inanır və dövlətimizin başçısının daxili və xarici siyasətini tamamilə dəstəkləyir. Dünya Cənubi Qafqazda baş verən kəskin təzadın fərqindədir: bu gün Azərbaycan işğalçı Ermənistanın vəhşicəsinə dağıtdığı yerləri yenidən qurur. Bəli, biz fərqliyik, sivil və mədəniyik.

Burada bir məqamı da vurğulamağı özümə borc bilirəm. Məlum olduğu kimi, Prezident İlham Əliyev Fərid Qayıbovu Gənclər və İdman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı parlaq və dərin məzmunlu çıxışında bir çox məqamlara, o cümlədən, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsinə də toxunub.

Prezident İlham Əliyev deyib: “Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır”.

Biz, orta və yaşlı nəslin nümayəndələri çalışmalıyıq ki, dövlətimizin başçısının vurğuladığı kimi, bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüsünlər. Zərrə qədər şübhə etmirəm ki, məhz belə olacaq. Azərbaycan xalqı özünün sevimli lideri İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da bütün sahələrdə bir-birindən parlaq, möhtəşəm zəfərlər qazanacaq.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 9 sentyabr.- S.4.